*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 18 (706)

30 sentyabr 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# HƏR YERDƏ EHTİRAMLA QARŞILANAN LİDER

**"Azərbaycan" qəzetinin müxbiri Yasəmən Musayevanın müəllifi olduğu "Hər yerdə ehtiramla qarşılanan lider" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**

Amerika Birləşmiş Ştatlarının Nyu York şəhərində dünyanın siyasi zirvəsi sayılacaq BMT Baş Assambleyasının 80-ci yubiley sessiyası öz işini davam etdirir.

"Birlikdə daha yaxşı: 80 il və daha çox sülh, inkişaf və insan hüquqları naminə" mövzusuna həsr olunmuş sessiyada qlobal gündəlikdə duran məsələlərə aid, o cümlədən dünyanın bəzi yerlərində davam edən münaqişələr, Dayanıqlı İnkişaf Məqsədləri, iqlim böhranı və digər mövzularda müzakirələr aparılır. Sözügedən sessiyada iştirak etmək üçün ABŞ-yə işgüzar səfərə gedən Prezident İlham Əliyev BMT-nin bu mötəbər tədbiri çərçivəsində məhz qarşı tərəflərin istəyi ilə xeyli sayda ölkə liderləri, nəhəng şirkətlərin rəhbərləri ilə görüşüb. Bu, Azərbaycana beynəlxalq səviyyədə marağın, onun başçısına şəxsi ehtiram və hörmətin göstəricisidir.





**Donald TRAMP: "Mən Sizinlə, həqiqətən, fəxr edirəm. Siz çox gözəl insansınız"**

Ümumiyyətlə, Prezident İlham Əliyevə göstərilən ali diqqət təkcə BMT-nin 80 illik yubiley tədbirində deyil, digər qlobal miqyaslı toplantılarda da hər zaman müşahidə olunan ənənəvilikdir. Azərbaycan liderinin istənilən beynəlxalq tədbirdə iştirakı daim diqqət mərkəzində olur, etdiyi çıxışlar, keçirdiyi görüşlər böyük maraqla qarşılanır. Bu mənada dövlətimizin başçısının BMT Baş Assambleyasının yubiley sessiyasının nüfuzlu qonaqları sırasında olması qanunauyğunluq idi.

Prezident İlham Əliyevi dünyada ehtiram olunan liderə çevirən isə onun ədalətə söykənən, sülhə dəstək olan müdrik və humanist siyasətidir.

Avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh sazişinin mətni paraflananda ABŞ lideri Donald Tramp da Prezident İlham Əliyevin bu şəxsi məziyyətlərinə vurğu etmişdi: "Siz güclü və ağıllı insansınız".

Məhz Azərbaycan liderinin səylərinin uğurlu nəticəsidir ki, bu gün Cənubi Qafqaz bölgəsində silahlar susub, qan-qada dayanıb. Bölgənin gələcək rifahı, tərəqqisi üçün geniş qapılar açılıb, əməkdaşlıq imkanları yaranıb.

Eləcə də sentyabrın 23-də Nyu Yorkda Prezident Donald Trampın və birinci xanım Melaniya Trampın adından BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbulda ABŞ lideri bir daha dövlətimizin başçısı barədə yüksək fikirlərini, İlham Əliyevlə fəxr etdiyini belə izhar etdi: "Mən Sizinlə, həqiqətən, fəxr edirəm. Siz çox gözəl insansınız".

Təbii ki, dünyanın nəhəng ölkəsinə rəhbərlik edən bir şəxsin dövlətimizin lideri haqqında səsləndirdiyi bu səmimi və yüksək fikirlər həm Donald Trampın İlham Əliyevin şəxsiyyətinə olan ehtiramının təzahürü, həm də Azərbaycan Prezidentinin dünyada sülhün bərqərar olması üçün atdığı əməli addımların yüksək qiyməti kimi dəyərləndirilməlidir.

## Sözü imzasıdır

Ötən 22 ildə sürətli inkişaf yolu keçərək milli maraqları qətiyyətlə təmin edən ölkəmizin Prezidenti İlham Əliyevin həyata keçirdiyi müstəqil və uzaqgörən siyasət nəticəsində Azərbaycan dünyanın hər yerindən görünən, böyük maraq və diqqətlə izlənilən nüfuzlu dövlətə çevrilib. Bu gün əksər ölkələrin hərtərəfli əlaqələr qurmaq üçün can atdığı Cənubi Qafqazın aparıcı aktoru olan Azərbaycanın qlobal miqyaslı məsələlərin həllində oynadığı aktiv rol, yeni və ədalətli dünya nizamının qurulması naminə atdığı addımlar beynəlxalq ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır. Strateji geosiyasi coğrafiyada yerləşən ölkəmizdə yaradılan əlverişli şərait respublikamızı beynəlxalq enerji, nəqliyyat qovşağına çevirib. Şimalla Cənubu, Şərqlə Qərbi birləşdirən nəhəng dəhlizlərin gerçəkləşdirilməsində müstəsna xidməti olan Azərbaycan həm də dünyada sülhün bərqərar olması üçün əməli işlər reallaşdıran ölkə kimi tanınır. Bir-biri ilə yola getməyən, aralarında ciddi ziddiyyətlər olan, hətta müharibə ərəfəsindəki bir çox ölkənin Azərbaycanın vasitəçiliyi sayəsində münasibətlərini normallaşdırması ilə bağlı faktlar kifayət qədərdir. Həmçinin BMT TŞ-nin qətnamələrini özü yerinə yetirərək suverenliyini təmin etməsi ilə ölkəmizin regiona yeni reallıqlar gətirməsi həqiqəti də dünyada etiraf olunur.

Prezident İlham Əliyevin həyata keçirdiyi balanslaşdırılmış və etimad olunan siyasət dünyanın əksər ölkələrinin respublikamızla ikitərəfli əlaqələrdə maraqlı olmasına rəvac verib. Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycanla ABŞ, Çin kimi nəhəng ölkələrin də hərtərəfli əlaqələrdə maraqlı olmaları təsadüfi deyil.

Təbii ki, bütün bunlar bilavasitə sözü imzası qədər kəsərli olan İlham Əliyev şəxsiyyətinə etibardan, inamdan irəli gəlir. O da bir başqa reallıqdır ki, bu gün dünya liderləri səmimiyyətlə İlham Əliyevi özlərinin dostu adlandırırlar.

Bu il avqustun 31-də Çinin Tiencin şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü oldu. Həmin görüşdə Prezident İlham Əliyevi "mənim əziz dostum" deyərək salamlayan Çin Sədri bu səmimi müraciəti ilə həm də İlham Əliyevə göstərdiyi dərin hörmət və ehtiramı nümayiş etdirdi.

Qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanla dövlətimizin rəhbəri İlham Əliyevin qardaşlıq münasibətləri ölkələrimiz arasındakı əlaqələrin ən yüksək zirvəyə qalxmasına birbaşa təkan verir. R.T.Ərdoğan hər zaman Azərbaycan Prezidentinə "əziz qardaşım" deyə xitab edir.

23 noyabr 2022-ci ildə Prezident İlham Əliyevin Serbiyaya rəsmi səfəri zamanı Prezident Aleksandar Vuçiç Azərbaycan rəhbəri ilə birgə Belqradda keçirilən mətbuat konfransında - "Biz Prezident İlham Əliyevin sözünə inanırıq, onun sözü imzasına bərabərdir" deyərək, bir daha İlham Əliyev xarakterinin qətiyyətinə, dönməzliyinə, etibarlılığına diqqət çəkmişdi.

Bəli, bu gün əksər ölkə liderləri İlham Əliyevin timsalında özlərinin qardaşa, dosta, güvənilən tərəfdaşa malik olduqlarını tez-tez dilə gətirirlər.

Bu cür nümunələrin sayını artırmaq da olar, lakin elə bu misalların özü də Prezident İlham Əliyevin qlobal liderlik portretini gözlər önündə canlandırmağa, onun beynəlxalq arenada tutduğu yüksək mövqeyi, dünyada söz sahibi, nüfuzlu şəxsiyyət olmasını görməyə yetir.

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ ƏMƏLİYYAT MÜŞAVİRƏSİ KEÇİRİLİB

Sentyabrın 22-də Daxili İşlər Nazirliyində ölkəmizdə keçiriləcək III MDB Oyunları müddətində ictimai asayişin mühafizəsinin təşkili və qarşıda duran vəzifələrə həsr olunmuş videokonfrans formatında naziryanı əməliyyat müşavirəsi keçirilib.

Müşavirəni giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov Azərbaycanın son illər bir çox nüfuzlu idman yarışına evsahibliyi etdiyini, daxili işlər orqanlarının belə tədbirlərdə ictimai təhlükəsizliyin və ictimai asayişin təmini sahəsində böyük təcrübə qazandığını diqqətə çatdırıb.

"2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı" elan edilən Gəncə şəhərində və ölkəmizin digər 6 şəhərində sentyabrın 28-dən oktyabrın 8-dək keçiriləcək III MDB Oyunları müddətində gücləndirilmiş iş rejimində xidmət aparacaq polis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının qarşıya qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirmələrinin vacibliyi qeyd olunub.



V.Eyvazov ölkəmizin evsahibliyi edəcəyi bu əhəmiyyətli idman tədbiri ərəfəsində və günləri zamanı da iştirakçıların, azarkeşlərin, ölkəyə gələn qonaqların və xarici media nümayəndələrinin təhlükəsizliyinin təmin edilməsi, oyunların keçirildiyi və ətraf ərazilərdə ictimai qaydanın qorunması, buraxılış məntəqələrində təhlükəsizliyin gücləndirilməsi, eləcə də insanların rahat, maneəsiz hərəkət etmələri üçün əlverişli şəraitin təmin edilməsi barədə tələb və tövsiyələrini verib.



**DİN-in Mətbuat xidməti**

2_Layout 1 29.09.2025 9:19 Page 1



# DAXİLİ İŞLƏR NAZİRİ GƏNCLƏRİN SIRASINDAN SEÇİM EDİB



Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov sentyabrın 10-da respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 180 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 19 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

**DİN-in Mətbuat xidməti**

# KURSANTLARIN ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB



Sentyabrın 13-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutuna 2025-ci ildə qəbul olunan kursantların təntənəli andiçmə mərasimi keçirilib.

Mərasim Hərbi İnstitutun Döyüş Bayrağının sıra meydanına gətirilməsi ilə başlayıb. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhid hərbi qulluqçularımızın əziz xatirələri bir dəqiqəlik sükutla anılıb. Nümunəvi göstərici hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.



Hərbi İnstituta yeni qəbul olunmuş kursantlar hərbi and içərək, Vətənimiz Azərbaycana və onun xalqına sadiq olacaqları, dövlətimizin mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqları, bundan ötrü qanlarını və canlarını əsirgəməyəcəkləri barədə söz veriblər.



İlk olaraq çıxış edən Hərbi İnstitutun rektoru general-mayor Elçin Məmmədov kursantların hərbi anda sadiq qalacaqlarına, hərb işini vicdanla öyrənəcəklərinə, hərbi ənənələri şərəflə davam və inkişaf etdirəcəklərinə, üzərilərinə düşən şərəfli və məsul vəzifələri layiqincə yerinə yetirəcəklərinə, zabit adına layiq olmağa çalışacaqlarına və onlara göstərilən etimadı hər zaman doğruldacaqlarına əminliyini bildirib.



Andiçmə mərasimində iştirak edən daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının andiçmə münasibətilə təbrik və tövsiyələrini çatdırıb. Təbrikdə qeyd olunub ki, Daxili Qoşunların bütün şəxsi heyəti kimi bu gün sıralarımıza daxil olan kursantlar da Ulu Öndər Heydər Əliyev məktəbinin davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırığı layiqincə yerinə yetirəcək, Daxili Qoşunların sıralarının möhkəmlənməsi üçün səy göstərəcək, dövlət və dövlətçiliyimizin daha da gücləndirilməsi naminə öz fədakar xidmətlərini əsirgəməyəcəklər.

Təbrikdə, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsində və lokal xarakterli antiterror tədbirlərində qazandığı böyük qələbənin müasir dövlətçilik və hərb tariximizin parlaq səhifəsi olduğu vurğulanıb, eləcə də Daxili Qoşunların şəxsi heyətinin qəhrəmanlıq nümunələri göstərərək, şərəfli döyüş yolu keçdiyi bildirilib.

Əlavə olaraq, general-mayor İ.Muradov çıxışında bütün kursantların təlimdə və məşğələlərdə fəallıq göstərəcəklərinə, mükəmməl hərbi biliklərə yiyələnəcəklərinə, təhsillərini müvəffəqiyyətlə başa vuraraq qoşunların hərbi hissələrində hazırlıqlı və peşəkar zabitlər kimi xidmətə başlayacaqlarına, bilik və bacarıqlarını dövlətimizin qorunması, inkişafı və tərəqqisi naminə əsirgəməyəcəklərinə, eləcə də bu şərəfli yolda inamla addımlayaraq uğurlar əldə edəcəklərinə inamını ifadə edib.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

# "FORMULA-1 QATAR AIRWAYS AZƏRBAYCAN QRAN-PRİ" YARIŞI ZAMANI TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİ YÜKSƏK SƏVİYYƏDƏ TƏMİN EDİLİB



Sentyabr ayının 18-dən 21-dək Bakıda "Formula-1 Qatar Airways Azərbaycan Qran-Pri" yarışı keçirilib. Beynəlxalq əhəmiyyətli idman yarışı zamanı ictimai qaydanın və təhlükəsizliyin təmin edilməsi, ərazinin mühafizəsi və nəzarət-buraxılış tədbirlərinə Daxili İşlər Nazirliyinin polis əməkdaşları ilə birlikdə cəlb olunan Daxili Qoşunların şəxsi heyəti üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlib.



Qeyd edilməlidir ki, ilk növbədə, müvafiq plan-hesab hazırlanaraq şəxsi heyətin xidmət sahələri üzrə bölgüsü aparılıb, polislə qoşunların birgə xidmətinin əlaqələndirilməsi, tədbirin təşkilatçıları, aidiyyəti dövlət qurumları ilə qarşılıqlı əlaqələrin qurulması məqsədilə Daxili Qoşunların Baş İdarəsində baş idarəetmə mərkəzinin, hərbi hissələrdə isə idarəetmə məntəqələrinin fəaliyyəti təşkil edilib. Yarışın təşkil olunacağı ərazi və obyektlərə baxış keçirilərək xidmətin aparılması baxımından təhlil olunub, aidiyyəti üzrə komandir heyəti təlimatlandırılıb. Xidmətə cəlb olunan hərbi qulluqçulara tədbirin əhəmiyyəti izah edilərək, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşmaları tələb olunub.



Yarış ərəfəsində hərbi hissələrdə keçirilən sıra baxışında ictimai qaydanın və təhlükəsizliyin təmin olunmasına cəlb ediləcək hərbi qulluqçuların xidmətə hazırlıqları, təminat-təchizat məsələlərinin həlli, eləcə də avtomobillərin vəziyyəti yoxlanılıb.

Bununla yanaşı, həvalə edilən obyektlərin mühafizəsi, nəzarət-buraxılış məntəqələrində buraxılış rejiminin təmin olunması mövzuları üzrə xüsusi məşğələlər keçirilib. Yarış zolağında, "Atletlər kəndi"ndə, eləcə də Bakı Kristal Zalında Daxili Qoşunların hərbi qulluqçularının polis əməkdaşları ilə birgə xidməti zamanı qarşıya qoyulan bütün tapşırıqlar uğurla yerinə yetirilib, hər hansı bir nöqsana yol verilməyib.

Həmçinin xidmətə cəlb olunan hərbi qulluqçularla əvvəlcədən aparılmış təlimatlandırma, o cümlədən onların mənəvi-psixoloji və fərdi keyfiyyətlərinə diqqət yetirilməsi nəticəsində vətəndaşlarla, xüsusən əcnəbi qonaqlarla ünsiyyətdə etik davranış qaydalarına ciddi əməl olunub.

Yarış keçirilən müddətdə xidmətin aparılması üçün bütün zəruri tədbirlər görülüb, şəxsi heyətin daşınması, qidalanması, hərbi qulluqçulara tibbi xidmətin göstərilməsi, onların asudə vaxtlarının səmərəli təşkili xüsusi diqqət mərkəzində saxlanılıb.

Göründüyü kimi, mötəbər tədbir zamanı ictimai təhlükəsizliyin təmin olunmasında kifayət qədər təcrübəyə malik olan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti bu dəfə də qarşıya qoyulan bütün tapşırıqları peşəkarlıqla yerinə yetirib.

**Mətbuat xidməti**

# YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI İLƏ FƏRQLƏNƏN BÖLMƏ



16077 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və layiqli xidmətilə fərqlənən bölmələrindən biri xüsusi vasitələrin tətbiqi dəstəsidir. Dəstə öz vəzifələrindən irəli gələn tapşırıqların icrasına məsuliyyətlə yanaşır və regionda ictimai qaydanın qorunub saxlanılmasında peşəkarlıq nümayiş etdirir. Şəxsi heyətin cəlb olunduğu xüsusi əməliyyatlarda qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirməsi bunu deməyə əsas verir.



Dəstənin uğurlu fəaliyyətindən bəhs edən dəstə komandirinin müavini-qərargah rəisi mayor Mirsalam Qüdrətli söylədi ki, qarşıya qoyulan müxtəlif tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə hər zaman hazır olmaq şəxsi heyətin əsas vəzifəsidir. Keçirilən təlim və məşğələlərin, həmçinin aparılan tərbiyə işinin əsas məqsədi də budur. Bu məqsədlə, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla sıra hazırlığı, fiziki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, atəş hazırlığı, taktiki hazırlıq, ictimai-siyasi hazırlıq məşğələləri təşkil olunur. Həmçinin kütləvi iğtişaşların qarşısının alınması, xüsusi vasitələrdən istifadə zamanı təhlükəsizlik qaydalarına riayət olunması mövzularında keçirilən məşğələlər zamanı xidməti fəaliyyətin xüsusiyyətlərinin hərbi qulluqçular tərəfindən dərindən mənimsənilməsinə xüsusi diqqət yetirilir.

Mayor M.Qüdrətli onu da əlavə etdi ki, çətin şəraitdə döyüş tapşırıqlarının keyfiyyətlə icrası məqsədilə həftənin cümə günləri 2 saatdan az olmayaraq gecə təlimləri keçirilir. Təlimlər zamanı bölmə komandiri tərəfindən hərbi qulluqçuların bilikləri və praktiki vərdişləri şəxsən yoxlanılır.

Tərbiyə işi saatlarında dəstənin şəxsi heyəti ilə yüksək nizam-intizama nail olmaq və onun qorunub saxlanılması mövzusunda söhbətlər aparılır. Vətənə, dövlətə və dövlətçiliyə, hərbi anda sadiqlik, hərbi xidmətin çətinliklərinə dözümlülük kimi keyfiyyətlər aşılanır.

Mayor M.Qüdrətli təlim və məşğələlərdə fərqlənən, öz vəzifələrinə məsuliyyətlə yanaşan hərbi qulluqçulardan baş leytenant Cavid Məmmədlinin, gizir Soltan Məmmədlinin, kiçik çavuş Laçın Tağıyevin, əsgərlər Məhəmməd Kərimovun və Murad Əliyevin adlarını çəkdi.

İnanırıq ki, dəstənin şəxsi heyəti bundan sonra da yüksək əzmkarlıq göstərərək qazandığı uğurları qoruyub saxlamağa müvəffəq olacaqdır.

**kapitan Şahin Cəfərzadə**

3_Layout 1 29.09.2025 9:16 Page 1



# DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ŞƏXSİ HEYƏTİ ANIM GÜNÜ İLƏ BAĞLI ZƏFƏR PARKINI ZİYARƏT EDİBLƏR



Sentyabrın 26-da Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin şəxsi heyəti Zəfər parkına gələrək 44 günlük Vətən müharibəsində respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad ediblər, xatirə daşının önünə gül dəstələri qoyublar.



**DİN-in Mətbuat xidməti**

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ 27 SENTYABR - ANIM GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB



Daxili İşlər Nazirliyində 27 Sentyabr - Anım Gününün beşinci ildönümünə həsr olunmuş mərasim keçirilib.

Tədbirdə Vətən müharibəsində iştirak etmiş Daxili İşlər Nazirliyinin hərbi qulluqçuları və polis əməkdaşları iştirak ediblər.

Əvvəlcə respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş igid oğullarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən daxili işlər nazirinin müavini polis general-leytenantı İsmət Əliyev Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin vahid komandanlığı altında dəmir yumruq kimi birləşən Silahlı Qüvvələrimizin, o cümlədən Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının Vətən müharibəsində yüksək peşəkarlıq və qəhrəmanlıq nümunələri göstərdiklərini vurğulayıb.

Nazir müavini bu gün işğaldan azad olunan ərazilərdə ictimai təhlükəsizliyin təmin olunması, Böyük Qayıdışın daha tez reallaşması üçün Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının xidməti vəzifələrini böyük qürur hissi ilə davam etdirdiklərini məmnunluqla vurğulayıb.

Daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov Vətən müharibəsində Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının keçdiyi şərəfli döyüş yolundan danışıb.

Daha sonra çıxış edənlər ölkə başçısının xüsusi diqqət və qayğısı ilə əhatə olunmuş hərbi qulluqçularımızın və polis əməkdaşlarının bilik və bacarıqlarını, peşəkarlıqlarını artırmaqla onlara göstərilən bu etimadı doğrultmaq üçün səylərini bundan sonra da əsirgəməyəcəklərini vurğulayıblar.

Tədbirin sonunda Vətən müharibəsində igid oğullarımızın qəhrəmanlıqlarını əks etdirən sənədli film nümayiş olunub.

**DİN-in Mətbuat xidməti**

# ŞİRVANDA YAŞAYAN ŞƏHİD AİLƏSİNƏ BAŞ ÇƏKİLİB



Bu gün cəmiyyətdə şəhid hərbi qulluqçulara və onların ailə üzvlərinə dərin rəğbət və ehtiram nümayiş etdirilir. Onların həyatı və döyüş yolu gənclərə örnək göstərilir.

Ölkə başçısı, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin şəhid ailələrinə daim göstərdiyi diqqət və qayğı göz önündədir. Şəhid ailələrinin sosial-məişət problemlərinin aradan qaldırılması, ehtiyaclarının qarşılanması istiqamətində respublikamızda həyata keçirilən tədbirlər təqdirəlayiqdir.

Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər hər zaman diqqət mərkəzində saxlanılır.

Daxili Qoşunların 25032 saylı hərbi hissəsində xidməti ezamiyyətdə olarkən bir neçə hərbi qulluqçunun Daxili Qoşunların şəhid xüsusi təyinatlısı baş əsgər Fərəcov Kamran İlqar oğlunun Şirvan şəhərində yaşayan ailəsinə baş çəkməsi də göstərilən qayğının təzahürüdür.

K.Fərəcov 1996-cı il fevralın 14-də Şirvan şəhərində doğulub, ailənin üçüncü övladı, həm də üç bacının bir qardaşı olub.

Kamran 2013-cü ildə Şirvan şəhərindəki Tahir Bağırov adına 11 saylı tam orta məktəbi bitirib. Orta təhsilini tamamladıqdan sonra ailəsinə təsərrüfat işlərində köməklik göstərib. 2014-cü ildə müddətli həqiqi hərbi xidmətini Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasında keçib. 2016-cı ildən Daxili Qoşunların 16073 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 2018-ci il avqustun 19-da Fidan Fərəcova ilə ailə qurub. Övladı yoxdur.

Vətən müharibəsi başlayanda 16073 saylı hərbi hissənin "Bəbir" şərti adını daşıyan, Vətən Müharibəsi Qəhrəmanı mayor Şıxamir Qaflanovun komandiri olduğu xüsusi təyinatlı dəstənin heyət nəfəri kimi döyüşlərə qatılıb. Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, Xocavənd rayonları uğrunda aparılan döyüş əməliyyatlarında fəal iştirak edib, düşmənə qarşı qətiyyətlə vuruşub. Kamranın son döyüşü oktyabrın 24-də Xocalı rayonunun Çanaqçı kəndi istiqamətində olub. Minaatan mərmisinin partlayışı nəticəsində ağır qəlpə yaraları alan Kamran qəhrəmancasına şəhadətə yüksəlib. Oktyabrın 29-da Şirvan şəhər Şəhidlər xiyabanında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15 və 29 dekabr 2020-ci il tarixli sərəncamları ilə baş əsgər Kamran Fərəcov ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

Şəhidin atası İlqar Fərəcov oğlu Kamran barədə fəxarətlə və qürurla danışdı. Bildirdi ki, oğlu xasiyyətcə təmkinli, böyük-kiçik yeri bilən və dost-tanış arasında hörmət qazanan gənc olub. İnanclı insan idi, atasına bütün işlərdə kömək edərdi. İstəməzdi ki, atası ağır işləri təkbaşına görsün: "Oğlumla həmişə fəxr etmişəm. Çox sakit uşaq olub. Həmişə hərbçi olmaq həvəsi ilə yaşayıb. Biz ona tərbiyə vermədik, anası ilə mənim bir-birimizə olan rəftarımız onun üçün tərbiyə idi".

Reyhan ana Vətən uğrunda şəhidlik zirvəsinə yüksələn bütün qəhrəman oğullarımızla qürur duyduğunu qeyd etdi. Şəhid anası kimi övladı barədə danışmağın onun üçün həm ağır, həm də qürurverici olduğunu bildirdi: "Bizim Kamranla bağlı çox arzularımız vardı. Hamısı yarımçıq qaldı. Mənim balam əsl hərbçi kimi yetişmişdi. Evdə olanda da tez-tez idmanla məşğul olardı. Müharibədə olanda neçə dəfə telefon əlaqəsi yaratdıq, heç birində döyüşdə olduğunu bizə bildirmədi. Kaş ki, özündən sonra bir yadigarı qalardı".




Şirvan şəhərində yaşadığı evin qarşısında Daxili İşlər Nazirliyi tərəfindən şəhidin xatirəsinə abidə-bulaq kompleksi yaradılıb. Evdə xatirə guşəsi düzəldilib.

Ümumiyyətlə, müharibədən ötən beş ilə yaxın müddət ərzində istər Daxili İşlər Nazirliyinin rəhbərliyi, istərsə də Daxili Qoşunların komandanlığı tərəfindən onlara göstərilən xüsusi diqqət və qayğıdan razı qaldığını söyləyən Fərəcovlar ailəsi buna görə dərin minnətdarlığını ifadə etdi.

**kapitan Nigar Ağayeva**

# QƏMƏRVAN KƏNDİNDƏ ŞƏHİD ƏSGƏRİN NƏŞİNİN QALIQLARI TORPAĞA TAPŞIRILIB

İşğalına son qoyulan şəhər və rayonlarımızda Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş, habelə əsir və ya girov olmuş bəzi vətəndaşlarımızın təcavüzkar erməni hərbçiləri tərəfindən öldürülərək basdırıldıqları kütləvi məzarlıqlar aşkarlanıb. Bununla yanaşı, həmin dövrdə müharibə qurbanlarımızın bir qismi şəxsiyyəti tanınmadan ön cəbhəyə yaxın və digər rayonların qəbiristanlıqlarında torpağa tapşırılıb.

2021-ci ildən etibarən sözügedən kütləvi məzarlıqlarda və adsız qəbirlərdə müvafiq dövlət qurumları tərəfindən ekshumasiya (dəfn yerindən götürmə) tədbirləri həyata keçirilib. Götürülən qalıqlar üzərində ekspertiza müayinələri aparılaraq kimə məxsus olduqları müəyyənləşdirilib.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının açıqladığı son məlumata görə, daha 4 nəfər itkin vətəndaşımızın nəşinin qalıqlarının kimliyi eyniləşdirilib. Bu şəxslərdən biri Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçusu olmuş əsgər Qayıbov Vəkil Möylam oğludur. Qeyd edim ki, şəhidin nəşinin qalıqları Tərtər şəhərinin qəbiristanlığındakı adsız məzarda tapılıb.

Əsgər V.Qayıbov 1973-cü il avqustun 30-da Qəbələ rayonunun Qəmərvan kəndində doğulub. Bu gün ahıl yaşlarında olan Möylam Qayıbov və Nuriyyə Qayıbova Vəkilin valideynləridir. O, çoxuşaqlı ailədə böyüyüb, bir qardaşı, üç bacısı var. Yaşına görə ailənin üçüncü övladı idi.

Doğma kəndindəki tam orta məktəbi bitirib. Sonra Bakı Kooperativ Texnikumunda (indiki Bakı Biznes və Kooperasiya Kolleci) maliyyə ixtisası üzrə təhsil alıb.

1992-ci ilin may ayında Vəkil DİN-in Daxili Qoşunlarının sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb. 3280 saylı hərbi hissədə (indiki 12318 saylı hərbi hissə) hərbi and içib. Müəyyən müddət xidmət etdikdən sonra ön cəbhəyə göndərilib. 3650 saylı hərbi hissənin (indiki 67987 saylı hərbi hissə) tərkibində erməni işğalçılarına qarşı vuruşub. Döyüş yolu Tərtər və Ağdərə rayonlarının ərazilərindən keçib.



1992-ci il sentyabrın 24-də Ağdərə rayonunun Sırxavənd kəndi istiqamətində döyüş zamanı Vəkil ağır yaralanaraq şəhadətə ucalıb. Onun nəşi tanınmaz vəziyyətdə olub. Həmkəndlisi, uşaqlıq çağından dostu, ön cəbhədə isə əsgər silahdaşı olmuş Abuzər Kişmişov şəhid döyüşçünü əlinin baş barmağında çoxdankı xəsarət izindən tanıyıb və bu barədə komandirinə deyib. Vəkilin nəşinin üzərinə ad və soyadı, həmçinin ailəsinin ünvanı yazılan kağız parçası qoyulub. Abuzər növbəti döyüş tapşırığının icrasına cəlb olunduğundan cənazənin göndərilməsində iştirak etməyib. Həmin vaxt bu günədək naməlum səbəbdən şəhidin nəşi düzgün ünvana çatdırılmayıb. Ola bilsin ki, onun üzərinə qoyulmuş kağız parçası daşınma zamanı itirilib. Şəhidin kimliyi müəyyən edilmədiyindən Ağdərə rayonuna yaxın məsafədə yerləşən Tərtər şəhərinin qəbiristanlığında adsız məzarda dəfn olunub. Abuzər bir müddət sonra doğma kəndinə gəldikdə cənazənin ünvana çatdırılmadığını bilib. Şəhidin harada dəfn olunduğundan o da xəbərsiz olub. Qayıbovlar ailəsinin üzvləri və qohumları tərəfindən müharibə, o cümlədən atəşkəs dövrlərində aparılan axtarışlar heç bir nəticə verməyib. Beləliklə, Vəkilin adı döyüş əməliyyatları ilə əlaqədar xəbərsiz itkin düşmüş hərbi qulluqçuların siyahısına salınıb.

Qəbələ Rayon Məhkəməsinin 27 sentyabr 2002-ci il tarixli müvafiq qətnaməsi ilə əsgər V.Qayıbovun döyüş bölgəsində xəbərsiz itkin düşməsi nəzərə alınaraq o, ölmüş elan edilib.

Şəhid hərbi qulluqçumuzun ailə üzvlərindən onun nəşinin qalıqlarının tapılması məqsədilə qan nümunələri götürülüb. 2025-ci il sentyabrın 5-də ailəyə qalıqların aşkarlanması barədə məlumat verilib.

Sentyabrın 12-də döyüşçünün nəşinin qalıqları Qəmərvan kəndinin qəbiristanlığında hərbi ehtiramla torpağa tapşırılıb. Dəfn mərasimində rayon rəhbərliyi, dövlət qurumlarının, hüquq-mühafizə orqanlarının vəzifəli şəxsləri, ictimaiyyət nümayəndələri, şəhid ailələrinin üzvləri, veteranlar, kənd sakinləri, Daxili Qoşunların 17071 saylı hərbi hissəsinin hərbi qulluqçuları və şəhidin doğmaları iştirak ediblər.



Qəmərvan kəndinin sakinlərindən 8 nəfər Birinci Qarabağ müharibəsi, 2 nəfər isə 44 günlük Vətən müharibəsi zamanı Vətən uğrunda şəhidlik zirvəsinə ucalıb. Kənddə şəhidlər abidəsi yaradılıb.

Vəkilin nəşinin qalıqlarının uzun illərdən sonra tapılması və doğma yurdunda dəfn olunması əzizləri üçün böyük təskinlikdir, artıq onların gözləri yollardan yığılıb, ziyarət edəcəkləri, ruhuna dualar oxuyacaqları məzar var. Qayıbovlar ailəsi hər bir şəhidin taleyinə belə həssaslıqla yanaşan, xatirəsinə böyük ehtiram göstərən qalib dövlətimizə dərin minnətdarlığını bildirir.

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**Yalçın Abbasov**

## "MƏŞĞƏLƏLƏR ŞƏXSİ HEYƏTİN BİLİK VƏ BACARIĞININ ARTIRILMASINA TƏKAN VERİR"



17072 saylı hərbi hissənin döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlayan, həvalə olunan tapşırıqları uğurla yerinə yetirən bölmələrindən biri komendant bölüyüdür. Hərbi hissənin döyüş bayrağının, avtomobil və zirehli texnikalar saxlanılan parkın, anbarların mühafizə və müdafiəsini təmin edən bölüyün şəxsi heyəti döyüş xidmətinin yerinə yetirilməsi zamanı peşəkarlıq nümayiş etdirir.

Komendant bölüyünün komandiri kapitan Qanboy İbrahimov bildirdi ki, hərbi hissənin mühafizə və müdafiəsini təşkil edən qarovulun üzərinə böyük məsuliyyət düşür. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçularda bir sıra vacib xüsusiyyətlərə diqqət yetirilir. Belə ki, onların sağlamlıqları, mənəvi-psixoloji hazırlıqları xüsusilə nəzarətdə saxlanılır. Həmçinin ayıq-sayıqlıq, möhkəm iradə və digər lazımi keyfiyyətlər keçirilən nəzəri məşğələlər və



praktiki təlimlər zamanı hərbi qulluqçulara aşılanır. Bu cür məşğələlər həm də şəxsi heyətin bilik və bacarığının artırılmasına təkan verir.

Kapitan Q.İbrahimov əlavə etdi ki, xidmətdən əvvəl müvafiq plana əsasən bölük komandirinin tərbiyə işləri üzrə müavini tərəfindən hərbi qulluqçulara müvafiq nizamnamənin maddələri çatdırılır: "Ümumiyyətlə, mütəmadi olaraq şəxsi heyətlə fərdi qaydada söhbətlər aparılır, mənəvi-psixoloji vəziyyəti öyrənilir, sağlamlığı tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Həmçinin tərbiyə işləri üzrə bölmənin təlimatçı-psixoloqu baş leytenant İlkin Xanlarzadə də xidmətə cəlb olunan şəxsi heyətlə fərdi qaydada söhbət aparır. Qarovulun xidmətinə nəzarət edərkən postlarda saatdarların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, eləcə də asudə vaxtın səmərəli təşkili - müxtəlif növ ədəbiyyatların, dövri mətbuatın mütaliəsi, stolüstü oyunların oynanılması da diqqət mərkəzində saxlanılır".

Bölük komandiri təlim və məşğələlərdə kifayət qədər fiziki güc, eləcə də bilik əldə edən şəxsi heyətin postda xidmət apararkən daha ayıq-sayıq, çevik olduğunu, tapşırılmış obyektlərin mühafizəsini qüsursuz yerinə yetirdiyini də qeyd etdi.

Komendant bölüyündə xidmətin təşkilində, hərbi qulluqçuların xidmətə hazırlanmasında, qarovulun yoxlanılmasında bölük komandirinin tərbiyə işləri üzrə müavini leytenant Zülfüqar Rüstəmlinin də yaxından iştirak etdiyini deyən kapitan Q.İbrahimov onun bacarığı və çalışqan zabit olduğunu vurğuladı.

Komandir onu da əlavə etdi ki, şəxsi heyətlə mütəmadi olaraq təşkil edilən məşğələlərin nəticəsi olaraq 2025-ci ilin I yarımilinin yekunlarına görə komendant bölüyü hərbi hissənin bölmələri arasında qabaqcıl yerə layiq görülüb: "Bu uğur bütün şəxsi heyətin əzmkarlığının nəticəsi kimi hər birimizi sevindirir və bizi daha böyük nailiyyətlərə həvəsləndirir".

**kapitan Xədicə Hacızadə**

*NÜMUNƏVİ XİDMƏT*

## BÖLÜYÜN NÜMUNƏVİ KİÇİK KOMANDİRİ




25032 saylı hərbi hissənin intizamı, nümunəvi xidmətilə seçilən hərbi qulluqçularından olan çavuş Zaur Məmmədli müddətli həqiqi hərbi xidmətdədir. Hərbi hissənin komendant bölüyünün komandiri baş leytenant Rəmal Vahabov tərəfindən müsbət xarakterizə olunan çavuş qısa zamanda şəxsi heyətə nümunə olmağı bacarıb.

Çavuş Z.Məmmədli 2006-cı il martın 10-da Bakı şəhərində zabit ailəsində anadan olub. Daxili Qoşunların sabiq hərbi qulluqçusu, istefada olan polkovnik Şahin Məmmədovun oğludur. 2012-2023-cü illərdə Bakıxanov qəsəbəsində yerləşən 94 saylı tam orta məktəbdə təhsil alıb. Orta məktəb illərində idmanın üzgüçülük növü ilə həvəskar səviyyədə məşğul olub.

2024-cü ildən Daxili Qoşunların 25032 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdədir. Komendant bölüyünün hərbi qulluqçusu kimi hər zaman özünə qarşı tələbkardır, xidmətə ciddi münasibətilə seçilir.

Zaur verilən tapşırıqların icrasında sayıqlıq göstərir, dərhal və keyfiyyətlə yerinə yetirməyə çalışır. Əzmkarlığı ilə fərqlənməkdən əlavə, həm də çavuşlar və əsgərlər arasında hörmət qazanıb. Qarovulun fəallarındandır. Təhkim edilən silahın taktiki-texniki xüsusiyyətlərini mükəmməl mənimsəyən hərbi qulluqçu gələcək həyatını hərbçi peşəsinə bağlamaq istəyir. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra o, Daxili Qoşunların sıralarında xidmətini davam etdirmək fikrindədir.

Hərbçi ləyaqətini hər şeydən üstün tutan Zaurun ən böyük arzusu həyatını, bütün bilik və bacarığını Vətənə xidmətə həsr etməkdir.

**kapitan Nigar Ağayeva**

## MƏSULİYYƏTLİ VƏ BACARIQLI QAZANXANA OPERATORU



17074 saylı hərbi hissənin qazanxanası gündəlik xidmətini təhlükəsizlik qaydaları üzrə müvafiq təlimatların tələblərinə əsasən təşkil edir. Qazanxana, qazanlar və bütün digər avadanlıqların hər zaman saz vəziyyətdə, təmiz və səliqəli saxlanılması təmin olunur.

Hərbi hissənin maddi-texniki təminat xidmətlərinin mənzil-istismar xidmətinin rəisi kapitan Etiram Şirəliyev görülən işlərdə qazanxana operatoru Qazi Ağasiyevin fəaliyyətini yüksək qiymətləndirərək onun funksional vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan işçi olduğunu bildirdi.

Qazi Ağasiyev 1976-cı ilin aprel ayının 6-da Zaqatala rayonunun Bazar kəndində anadan olub. Müdafiə Nazirliyinin Gədəbəy rayonu ərazisində yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Ordu sıralarından ehtiyata buraxıldıqdan sonra bir müddət təsərrüfat işləri ilə məşğul olub. 2013-cü ildən 17074 saylı hərbi hissənin təminat bölüyünün qazanxana operatoru vəzifəsində işləyir. Yanğın təhlükəsizliyinə, eləcə də qazanların hər zaman saz vəziyyətdə saxlanılmasına ciddi riayət edir, qarşısına qoyulan tapşırıqları layiqincə yerinə yetirir.

Məlumat üçün qeyd edək ki, Q.Ağasiyevin qardaşı Vüqar Ağasiyev Birinci Qarabağ müharibəsi zamanı Daxili Qoşunların sıravi döyüşçüsü kimi Ağdam və Ağdərə rayonları ərazilərindəki bir sıra kəndlərin, eləcə də yüksəkliklərin müdafiəsində fəal iştirak edib. 1992-ci il noyabrın 1-də Ağdərə rayonunun Qazançı kəndi ətrafında gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Vüqar Ağasiyev ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib.

Qazi şəhid qardaşının xatirəsini uca tutur, öz işi və fəaliyyəti ilə onun adına layiq olmaq əsas həyat amalıdır.

**17074 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

## İNTİZAMLI VƏ BACARIQLI RADİOTELEFONÇU

16076 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından biri əsgər Xəyal Məmmədovdur. O, 2025-ci ilin yanvar ayında 25031 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb. Həmin ilin fevral ayında 25032 saylı hərbi hissədə kiçik mütəxəssis hazırlayan bölmədə rabitəçi ixtisasına yiyələnərək xidmətini davam etdirmək üçün 16076 saylı hərbi hissənin təminat bölüyünün rabitə taqımının radiotelefonçu vəzifəsinə təyin edilib.

Əsgər X.Məmməov 2006-cı il dekabrın 4-də İsmayıllı rayonunun Ruşan kəndində anadan olub. 2013-2024-cü illərdə doğma kəndində yerləşən tam orta məktəbdə təhsil alıb.



Radiotelefonçu bildirdi ki, rabitə növbətçisi kimi xidmətə cəlb olunur və gündəlik Daxili Qoşunların Baş İdarəsi, eləcə də hərbi hissənin bölmələri ilə rabitə əlaqəsi yoxlanılır, hər hansı nasazlıq baş verərsə, dərhal aradan qaldırılması təmin edilir.

Əsgər X.Məmmədov xidməti-vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları ləyaqətlə yerinə yetirir, hərbi nizamnamələrin tələblərini bilir və gündəlik xidməti bu tələblərə uyğun təşkil edir. O, bölük komandiri tərəfindən müsbət xarakterizə olunur.

**16076 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

## TİBB XİDMƏTİ VƏZİFƏLƏRİNİ VİCDANLA YERİNƏ YETİRİR

Hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidmətinin fəaliyyəti danılmazdır. Bu məqsədlə hərbi hissələrdə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilməkdədir.

16077 saylı hərbi hissənin tibb xidmətinin şəxsi heyəti də vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir. Tibb xidməti kapitanı Samir Aslanlı şəxsi heyətin tibbi təminatını həyata keçirir, hərbi hissədə müalicə-profilaktika, sanitar-gigiyena qaydalarına riayət olunmasına, xəstə hərbi qulluqçulara vaxtlı-vaxtında lazımi tibbi yardımın göstərilməsinə cavabdehlik daşıyır.

Tibb xidməti kapitanı S.Aslanlı bildirdi ki, gündəlik olaraq xidmət öz işini "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında



Təlimat"ın tələblərinə və hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Öncə xidmət daxilində iclas keçirilir, gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir. Tibb xidmətinin hərbi qulluqçuları: sanitar təlimatçı - dezinfektor baş çavuş Elməddin Səfərov, aptek rəisi Günay Allahverdiyeva qoyulan tapşırıqları uğurla və vaxtında icra edirlər.

Xidmət rəisi söylədi ki, hərbi hissədə sanitar-gigiyenik vəziyyət qənaətbəxşdir. Həmçinin işğaldan azad olunan ərazilərdə xidmətə cəlb edilən şəxsi heyətin sağlamlığının qorunması üçün müvafiq profilaktik tədbirlər həyata keçirilir.

Bununla yanaşı, qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi aparılır, sağlamlığında problem aşkarlanan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ehtiyac yarandıqda tibb məntəqəsində stasionar müalicəyə qəbul olunur.

Bir sözlə, şəxsi heyətin sağlamlığı etibarlı əllərdədir.

**kapitan Şahin Cəfərzadə**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### ASELSAN Londonda yeni nəsil mobil antidron sistemini təqdim edib

Türkiyənin ASELSAN şirkəti Londonda keçirilən DSEI-2025 beynəlxalq müdafiə sərgisində KORKUT 100/25 SB yeni nəsil mobil antidron sistemini beynəlxalq ictimaiyyətə təqdim edib. ASELSAN-dan "Poliqon"a verilən məlumata görə, yeni sistem yaxınmənzilli hava hücumundan müdafiə (HHM) sahəsində mühüm mərhələ hesab olunur və inteqrə edilmiş, döyüşə hazır dizaynı ilə taktiki dronlardan müdafiə anlayışına yeni yanaşma gətirir.




ASELSAN tərəfindən hazırlanan 25 mm-lik ATOM ağıllı sursatı ilə təchiz edilmiş sistem həm tək-tək fəaliyyət göstərən dronları, həm də koordinasiyalı şəkildə çalışan dron sürülərini maksimum öldürücülük və əməliyyat çevikliyi ilə zərərsizləşdirir.

## NARKOMANİYAYA "YOX" DEYƏK!

Müasir dövrümüzdə cəmiyyəti düşündürən və narahat edən ən dəhşətli problemlərdən biri də narkomaniyadır.

Narkotik vasitələrdən istifadə ailələrin dağılmasına, cinayətkarlığın artmasına, cəmiyyətdə ən böyük bəlalardan olan QİÇS (Qazanılmış İmmun Çatışmazlığı Sindromu) xəstəliyinə gətirib çıxarır. Narkotik vasitələr insanlarda asılılıq yaratdığı üçün narkotikin vaxtı çatdıqda o mütləq qəbul edilməlidir. Narkomanın isə narkotik vasitəni almağa pulu olmadıqda o, hər cür



vasitəyə, oğurluğa, adam öldürməyə və digər cinayətlərə əl ata bilər.

Bəşəriyyəti düşündürən bu bəla ilə mübarizə sahəsində Azərbaycan Respublikasında da müvafiq Dövlət Proqramına uyğun olaraq məqsədyönlü işlər aparılır.

Dövlət Proqramından irəli gələn məsələlərin həyata keçirilməsi məqsədilə Daxili Qoşunlarda Azərbaycan Respublikasının daxili işlər naziri tərəfindən təsdiq edilmiş müvafiq tədbirlər planının aidiyyəti bəndlərinin icrası vaxtlı-vaxtında təmin olunur.

Şəxsi heyət arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirilməsi məqsədilə bütün dərəcəli hərbi qulluqçularla hər rüb əlavə məşğələ planlaşdırılıb keçirilir.

Bundan əlavə, Daxili Qoşunların hərbi hissələrinin yerləşdiyi şəhər və rayonlarda hərbi qulluqçular arasında sağlam həyat tərzinin təbliği olunması məqsədilə səhiyyə, o cümlədən daxili işlər orqanlarının əməkdaşları ilə görüşlər təşkil olunur, izahedici söhbətlər aparılır.

Bəşəriyyətin dəhşətli bəlası olan narkomaniya ilə mübarizə nəinki dövlətin, həmçinin bu dövlətdə yaşayan hər bir vətəndaşın borcudur.

**Mətbuat xidməti**

## Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **istefada olan polkovnik-leytenant Eldar Həsənovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan mayor Qorxmaz Tahirovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin komandanlığı baş çavuş Sahib İsayevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25033 saylı hərbi hissənin komandanlığı MAXE baş əsgər Şəhriyar Şahmərdanovun **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000